AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* — *№ 28 (1488), 31 avqust - 6 sentyabr 2021-ci il* — *Qəzet 2001-ci ildən çıxır.*



## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında qızıl medallar qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə qızıl medallar qazandıran idmançılarımızı təbrik edib.

Dövlətimizin başçısı bununla bağlı tvitterdəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Milli Paralimpiya komandamızın üzvləri - Şəhanə Hacıyeva, Vüqar Şirinli və Raman Salehi "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə qələbə sevincini yaşatdıqlarına görə ürəkdən təbrik edir, onlara və komandamızın digər üzvlərinə bundan sonra da yalnız uğurlar arzulayıram!"

## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında növbəti qızıl medallar qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalları qazandıran idmançılarımızı təbrik edib.

Dövlətimizin başçısı bununla bağlı tvitterdəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Tokio-2020" Yay Paralimpiya Oyunlarında komandamızın qazandığı qızıl medalların sayı altıya çatmışdır. Bu münasibətlə növbəti qızıl medallar qazanmış Sevda Vəliyeva, Xanım Hüseynova və Hüseyn Rəhimlini səmimi qəlbdən təbrik edir və komandamıza yeni-yeni nailiyyətlər arzu edirəm!".

## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında növbəti qızıl medallar qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl medalları qazandıran idmançılarımızı təbrik edib.

Dövlətimizin başçısı bununla bağlı tvitterdəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Növbəti qızıl medal sevincini bizə bəxş etdikləri üçün Dürsədəf Kərimovaya, rekordçularımız Həmid Heydəri və Elvin Astanova təşəkkür edir, onları qələbələri münasibətilə ürəkdən təbrik edirəm!".

## Prezident İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Tokio-2020" Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən idmançılarımızı təbrik edib.

Dövlətimizin başçısı bununla bağlı tvitterdəki hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Tokio-2020" Yay Paralimpiya Oyunlarında yüksək nəticə göstərən komandamızın üzvləri - İlham Zəkiyev, Namiq Abbaslı və Pərvin Məmmədovu səmimi qəlbdən təbrik edirəm!".



## Birinci vitse-prezident Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında uğur qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə qızıl və bürünc medallar qazandıran idmançılarımızı təbrik edib.

Birinci vitse-prezidentin bununla bağlı instaqram hesabında etdiyi paylaşımda deyilir:

"Bizim idmançılarımızı - qızıl medal sahibləri Şəhanə Hacıyeva, Vüqar Şirinli, Raman Saleh, Sevda Vəliyeva, Xanım Hüseynova, Hüseyn Rəhimlini, bürünc medal sahibləri Pərvin Məmmədov və Namiq Abaslını parlaq qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Mükəmməl fiziki hazırlıq və yenilməz qələbə əzmi nümayiş etdirərək, siz Azərbaycanı "Tokio-2020" XVI Yay Paralimpiya Oyunlarında layiqincə təmsil etdiniz. Əldə etdiyiniz yüksək nəticələr sizin bacarığınızın, əla səviyyədə hazırlığınızın, məqsədyönlülüyünüzün və iradənizin əyani sübutudur. Sizin hər birinizə və milli paralimpiya yığmamızın digər üzvlərinə möhkəm cansağlığı, yeni nailiyyətlər diləyir və ən xoş arzularımı çatdırıram".

## Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində "Tokio-2020" Yay Paralimpiya Oyunlarında qızıl medal qazanan atletimizi təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində "Tokio-2020" Yay Paralimpiya Oyunlarında milli yığmamızın qızıl medal qazanan atleti Həmid Heydərini təbrik edib.

Paylaşımda deyilir: "Bizim növbəti qələbəmiz! Milli yığmamızın atleti Həmid Heydəri Azərbaycan üçün yeddinci qızıl medalı qazandı! Nizə atma yarışlarında o, 51,42 metr nəticə göstərərək yeni dünya rekorduna imza atdı. İdmançımızı səmimi-qəlbdən təbrik edir və milli yığmamıza yeni nailiyyətlər arzulayıram!".

## Birinci vitse-prezident Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında növbəti medallar qazanan idmançılarımızı təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Tokio-2020" Yay Paralimpiya Oyunlarında ölkəmizə növbəti qızıl və bürünc medallar qazandıran idmançılarımızı təbrik edib.

Birinci vitse-prezidentin bununla bağlı instaqram hesabında etdiyi paylaşımda deyilir:

"Bizim yeni qələbələrimiz, növbəti medallarımız! İdmançılarımızı - qızıl medal sahibləri, dünya rekordunu yeniləmiş Elvin Astanovu, Dürsədəf Kərimovanı və bürünc medal qazanmış İlham Zəkiyevi səmimi qəlbdən təbrik edirəm. Sizin hamınıza və milli paralimpiya yığmamızın digər üzvlərinə möhkəm cansağlığı, yeni nailiyyətlər arzulayıram".

## Tokio XVI Yay Paralimpiya Oyunları davam edir

*Komandamızın hesabında 9 qızıl, 4 bürünc medal var*

Səh. 2-3

İrina Kindzerska:

**"Gərgin və çətin yolun sonunda Olimpiya Oyunlarının medalı dayanır"**

Səh. 4

*Unudulmaz sənətkarlarımızın "Olimpiya dünyası"nda idmanla bağlı xatirələri*

Səh. 6




# Tokio XVI Yay Paralimpiya Oyunları davam edir

## *Komandamızın hesabında 9 qızıl, 4 bürünc medal var*

Avqustun 24-də Tokiodakı Milli Olimpiya Stadionunda XVI Yay Paralimpiya Oyunlarının təntənəli açılış mərasimi keçirilib. XVI Yay Paralimpiya Oyunlarında 160 milli komandadan, o cümlədən qaçqınlar yığmasından təqribən 4400 idmançı mübarizə aparır. Butan, Qrenada, Maldiv, Paraqvay, Sent-Vinsent və Qrenada komandaları Oyunlarda ilk dəfə iştirak edir.

Açılış mərasimində əvvəlcə Yaponiyanın dövlət bayrağı tanınmış yerli paralimpiyaçılar tərəfindən meydana gətirilib. Özünümüdafiə qüvvələrinin qoşun növlərinin nümayəndələri dövlət himninin müşayiəti ilə dövlət bayrağını qaldırıblar.

Meydanda rəngarəng detalları və müasir texnologiyaları əks etdirən kompozisiya çoxsaylı iştirakçılar tərəfindən təqdim olunub. İlkin kompozisiya atəşfəşanlıqla başa çatıb. Tokionun Paralimpiya Oyunlarına hazırlığını, paralimpiyaçıların müxtəlif idman növləri üzrə yarışlarda iştirakını əks etdirən videoçarx nümayiş olunub.

Sonra yığma komandaların təntənəli keçidi başlayıb. İlk olaraq qaçqın atletlər komandası arenaya daxil olub.

Açılış mərasimində Azərbaycanın Paralimpiya yığmasının keçidi zamanı bayrağımızı Pekində keçirilmiş Paralimpiya Oyunlarının qalibi Oloxan Musayev aparıb. Ölkəmizin heyəti parada yaxalarında 44 günlük Vətən müharibəsinin simvoluna çevrilmiş xarıbülbül nişanı ilə çıxıb.

İdmançıların paradı ev sahibi ölkənin - Yaponiya paralimpiyaçılarının keçidi ilə başa çatıb.

Komandaların paradından sonra fiziki məhdudiyyətlərə baxmayaraq, insan ruhunun qarşılaşdığı bütün çətinlikləri aradan qaldırmağa qadir olduğunu əks etdirən kompozisiya nümayiş olunub.

Tokio-2020-nin Təşkilat Komitəsinin sədri xanım Haşimoto Seyko çıxış edərək Yaponiya paytaxtının daha bir möhtəşəm tarix yazmağa - XVI Paralimpiya Oyunlarına ev sahibliyi etməyə tam hazır olduğunu bildirib. O, paralimpiyaçıları təbrik edib, onlara uğurlar arzulayıb. Bütün dünyanı ağuşuna alan koronavirus pandemiyası şəraitində Olimpiya və Paralimpiya Oyunlarının təşkilatçılarına minnətdarlığını bildirən Haşimoto Seyko bu yarışların insanlığın qarşılaşdığı bütün çətinlikləri aradan qaldırmağa qadir olduğunu nümayiş etdirəcəyini bildirib.

Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons çıxışında paralimpiyaçıların tükənməz qələbə əzmi ilə bütün maneələri, o cümlədən fiziki imkanlarının məhdudluğunu aşaraq parlaq nailiyyətlər qazanacaqlarına əminliyini bildirib. Yaponiyaya səmimi qəlbdən minnətdarlıq edən Endrü Parsons bu yarışların yapon xalqının qəlbində silinməz izlər qoyacağına əminliyini bildirib.

Çıxışlardan sonra Yaponiya İmperatoru Naruhito XVI Paralimpiya Oyunlarını açıq elan edib.

Sonra səhnəyə Paralimpiya bayrağı gətirilib və Paralimpiya Oyunlarının himninin müşayiəti ilə ucaldılıb. İdmançılar, hakimlər və məşqçilər Paralimpiya andı içiblər.

Nəhayət, uzun səyahətdən sonra Böyük Britaniyadan gətirilən və Yaponiyanın müxtəlif prefekturalarından toplanan Paralimpiya məşəli Tokio Milli Olimpiya stadionuna gətirilib. Üç istiqamətdən günəş formasında yaradılmış məşələ yaxınlaşan Yaponiyanın tanınmış paralimpiyaçıları XVI Yay Paralimpiya Oyunlarının məşəlini alovlandırıblar. Açılış mərasimi möhtəşəm atəşfəşanlıqla başa çatıb.

Qeyd edək ki, XVI Paralimpiadanın proqramında idmanın 22 növü yer alıb.













Proqrama parabadminton və parataekvondo ilk dəfə salınıb. İdmançılar ümumilikdə 539 dəst medal uğrunda mübarizə aparacaqlar.

Azərbaycan XVI Yay Paralimpiya Oyunlarında 35 idmançı ilə təmsil olunur. Rio-2016-nın qızıl mükafatçısı Ramil Qasımov koronavirusa yoluxduğuna görə yarışlardan kənarlaşdırılaraq karantinə alınıb. Paralimpiyaçılarımız Tokio-2020-yə idmanın 6 növü üzrə 47 lisenziya qazanıblar. Atletlərimizin 23-ü kişi, 12-si qadındır.

İdmançılarımız cüdo, atletika, pouerliftinq, üzgüçülük, güllə atıcılığı və kamandan oxatma yarışlarında mübarizə aparırlar. Bu günə qədər Azərbaycan komandasının hesabında 13 medal var. Onlardan 9-u qızıl, 4-ü isə bürünc medaldır.

### Pouerliftinq

Tokio-2020 Yay Paralimpiya Oyunlarında Azərbaycana ilk medalı pouerliftinqçimiz Pərvin Məmmədov (49 kq) qazandırıb. Paralimpiadanın ikinci günündə - avqustun 26-da mübarizəyə başlayan idmançımız 156 kq nəticə göstərərək bürünc medala sahib çıxıb. Yarışın qalibi adına isə iordaniyalı idmançı Omar Sami Hamadeh Qarada layiq görülüb. İkinci yeri vyetnamlı Conq Le Van tutub.

* * *

Paralimpiya Oyunlarının pouerliftinq yarışlarında 97 kq çəki dərəcəsində komandamızı Nurlan Babacanov təmsil edib. İdmançımız 185 kq nəticə ilə Oyunları 7-ci yerdə başa vurub.

* * *

107 kq çəki dərəcəsində yarışan pouerliftinqçilərin yarışında komandamızı Elşən Hüseynov təmsil edib. Pouerliftinqçimiz Tokio-2020-ni səkkizinci yerdə başa vurub.

* * *

Ən ağır çəkili pouerliftinqçilərin yarışında isə Şamo Aslanov (+107 kq) mübarizə aparıb. İdmançımız yarışı səkkizinci pillədə tamamlayıb.

### Paracüdo

Tokio-2020 Yay Paralimpiya Oyunlarının üçüncü günündə paracüdoçularımız mübarizəyə başlayıblar. "Nippon Budokan" idman mərkəzində keçirilən yarışların ilk günündə 4 idmançımız tatami üzərinə çıxıb.

Oyunlarda 48 kq çəki dərəcəsində çıxış edən qadın paracüdoçumuz Şəhanə Hacıyeva yaponiyalı Şuzika Hanqai və Viktoriya Potapovaya (Rusiya Paralimpiya Komitəsi) qalib gələrək, qızıl medal uğrunda görüşə vəsiqə qazanıb. Həlledici qarşılaşmada onun rəqibi Fransa təmsilçisi Sandrine Martinet olub. Finalda rəqibini üstələyən Ş.Hacıyeva Paralimpiya Oyunlarının qalibi adına layiq görülüb.

* * *

Paracüdo yarışlarında komandamıza növbəti qızıl medalı 60 kq çəki dərəcəsində çıxış edən Vüqar Şirinli qazandırıb. Təmsilçimiz ilk görüşdə türkiyəli Recep Çiftçiyə qalib gələrək yarımfinala yüksəlib. Onun növbəti rəqibi rumıniyalı Aleks Boloqa olub. Rəqibini məğlub edən V.Şirinli Tokio-2020-nin finalına yüksəlib. Təmsilçimizin həlledici qarşılaşmadakı rəqibi qazaxıstanlı Anuar Sarıyev olub. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə təmsilçimiz qələbə qazanaraq, Tokio Paralimpiadasının qızıl medalına yiyələnib.











*(ardı 3-cü səhifədə)*

TOKİO - 2020

# Tokio XVI Yay Paralimpiya Oyunları davam edir

## *Komandamızın hesabında 9 qızıl, 4 bürünc medal var*

*(əvvəli 2-ci səhifədə)*

Digər paracüdoçumuz Namiq Abaslı (66 kq) ilk görüşdə ispaniyalı Bannon İbanesə məğlub olub. Rəqib finala yüksəldiyi üçün idmançımız təsəlliverici görüşdə iştirak etmək hüququ qazanıb. Üçüncü yer uğrunda görüşdə Puerto-Riko təmsilçisi Luis Labdiel Perezi və Viktor Rudenkonu (Rusiya Paralimpiya Komitəsi) üstələyən Namiq Abaslı bürünc medal uğrunda görüşdə Ukrayna idmançısı David Xorava ilə qarşılaşıb. Həlledici görüşdə rəqibini məğlub edən N.Abaslı Paralimpiya Oyunlarının bürünc medalına sahib olub.

* * *

Digər qadın paracüdoçumuz Bəsti Səfərova (52 kq) isə ilk görüşdə Yui Fucivaraya (Yaponiya) uduzub. Rəqib finala yüksəldiyi üçün təmsilçimiz təsəlliverici görüşə çıxsa da, ukraynalı Nataliya Nikolayçikə məğlub olaraq paralimpiadanı medalsız başa vurub.

* * *

Avqustun 28-də komandamız paracüdo yarışlarında növbəti medallarını qazanıb. Qadınlar arasında 57 kq çəki dərəcəsində mübarizə aparan paracüdoçumuz Sevda Vəliyeva ilk görüşdə qazaxıstanlı Dayana Fedossova, növbəti mərhələdə isə Türkiyə idmançısı Zeynep Çelikə qalib gələrək, həlledici mərhələyə yüksəlib. Finalda cüdoçumuzun rəqibi Özbəkistan təmsilçisi Parvina Samandarova olub. Rəqibini məğlub edən S.Vəliyeva komandamıza növbəti qızıl medalı qazandırıb.

* * *

Azərbaycan komandasına növbəti qızıl medalı qadın paracüdoçumuz Xanım Hüseynova (63 kq) qazandırıb. İdmançımız startda yaponiyalı Hiroko Kudodan üstün olub. Çinli Yue Vanqı da üstələyən idmançımız finalda ukraynalı İrina Husiyeva ilə qarşılaşıb. Gərgin idman mübarizəsi şəraitində keçən görüşdə paracüdoçumuz qalib gələrək Paralimpiya çempionu adını qazanıb.

* * *

Tokioda daha bir qızıl medal xəbəri paracüdoçumuz Hüseyn Rəhimlidən gəlib. 81 kq çəki dərəcəsində çıxış edən təmsilçimiz ilk görüşdə Böyük Britaniya idmançısı Daniel Povelə qalib gələrək, yarımfinala yüksəlib. Onun növbəti rəqibi Koreya Respublikasından olan Jung Min Lu olub. Rəqibini məğlub edən H.Rəhimli Tokio-2020-nin finalına yüksəlib. İdmançımız finalda özbəkistanlı Davurxon Karomatov ilə qarşılaşıb. Rəqibindən üstün olan H.Rəhimli Paralimpiadada fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

* * *

Qadın paracüdoçumuz Dürsədəf Kərimova da Tokio-2020-də mükafatçılar sırasında yer alıb. 70 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən paracüdoçumuz ukraynalı Anastasiya Harnik və Braziliya idmançısı Meq Emmeriçə qalib gələrək, həlledici mərhələyə yüksəlib. Finalda idmançımızın rəqibi Qazaxıstan təmsilçisi Zarina Baybatina olub. Rəqibini ipponla məğlub edən D.Kərimova Paralimpiya çempionu adını qazanıb.





* * *

Paracüdo yarışlarının son günündə ikiqat Paralimpiya çempionumuz İlham Zəkiyev də mübarizəyə başlayıb. 100 kq-dan yuxarı çəki dərəcəsində çıxış edən paracüdoçumuz Böyük Britaniya təmsilçisi Cek Hoksona qalib gəlsə də, dörddəbir finalda Van-Gen Çoiyə (Koreya Respublikası) məğlub olub. Rəqib finala yüksəldiyi üçün İ.Zəkiyev təsəlliverici görüşdə iştirak etmək hüququ qazanıb. Yamaykalı Teador Subbaya qalib gələn idmançımız bürünc medal uğrunda görüşdə özbəkistanlı Şirin Şaripovla qarşılaşmalı olub. Ancaq rəqib əvvəlki görüşdə qadağan olunmuş fənd işlətdiyi üçün yarışdan kənarlaşdırılıb və İ.Zəkiyev texniki qələbə qazanıb.

Bu, İlham Zəkiyevin Paralimpiya Oyunları tarixində dördüncü medalı olub. Paracüdoçumuz buna qədər Afina-2004, Pekin-2008 Yay Paralimpiya Oyunlarının qalibi və London-2012-nin bürünc mükafatçısı olub.

Beləliklə, Azərbaycan paracüdoçuları Tokioda keçirilən XVI Yay Paralimpiya Oyunlarının ümumi medal sıralamasında 6 qızıl və 2 bürünc medal qazanaraq, yekunda birinci yeri tutublar. Özbəkistan ikinci (iki qızıl, iki gümüş və iki bürünc medal), İran isə üçüncü yerdədir (iki qızıl medal).

Qeyd edək ki, Ramil Qasımov Oyunların başlamasına bir neçə gün qalmış koronavirusa yoluxduğu üçün Paralimpiya Oyunlarından kənarda qalmışdı.

## Üzgüçülük

Paralimpiya Oyunlarının ikinci günündə üzgüçümüz Roman Saley mübarizəyə başlayıb. İdmançımız 100 metr məsafəyə arxası üstə üzgüçülük yarışlarında çıxış edib. Üzgüçümüz yarışda bütün rəqiblərini geridə qoyaraq, Tokio-2020 Yay Paralimpiya Oyunlarının qalibi adını qazanıb.

İdmançımız avqustun 29-da 50 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışlarında gücünü sınayıb. Təsnifat mərhələsində 23,98 saniyəlik nəticə ilə üçüncü olan paralimpiyaçımız həlledici mərhələyə adlayıb. Finalda məsafəni 23,85 saniyəyə qət edən R.Saley dördüncü olub. Yarışın qalibi belaruslu İqor Boki olub. O, məsafəni 23,21 saniyəyə qət edib. Gümüş və bürünc mükafatçılar Ukrayna təmsilçiləri - müvafiq olaraq İlya Yaremenko (23.70) və Maksim Veraksa (23.83) olub.

Qeyd edək ki, Roman Saley bu gün 100 metr məsafəyə sərbəst üsulla üzmədə və sentyabrın 3-də 100 metr məsafəyə batterflyay üsulu ilə üzmədə də çıxış edəcək.







## Para-atletika

Paralimpiya çempionu və komandamızın Tokio-2020-nin açılış mərasimdə bayraqdarı olan atlet Oloxan Musayev avqustun 27-də atletikanın nüvə itələmə yarışında mübarizə aparıb. O, 11,89 metr nəticə ilə 5-ci yeri tutub.

Bayraqdarımız avqustun 30-da isə atletikanın diskatma növündə gücünü sınayıb. 2008-ci il Pekin Paralimpiya Oyunlarının qalibi Oloxan Musayev F55 kateqoriyasında bu dəfə də uğursuz çıxış edib. Təmsilçimiz 37,92 metr nəticə ilə yeddinci olub. Yarışın qalibi braziliyalı Klaudiney Batista dos Santos olub - 45,59 metr. Paraatlet, həmçinin Paralimpiya rekordu da müəyyənləşdirib.

* * *

Komandamızın digər üzvü Həmid Heydəri paraatletika yarışlarında uğurla çıxış edərək mükafatçılar sırasına düşüb. Nizəatma yarışlarında mübarizə aparan idmançımız 11 rəqibini qabaqlayaraq, 51,42 xalla Paralimpiya çempionu olub. Paraatletimiz, həmçinin bu nəticə ilə dünya rekorduna da imza atıb. Qeyd edək ki, əvvəllər dünya rekordu braziliyalı idmançı Sisero Valdiran Lins Npbreyə məxsus idi.

### *Tokio-2020 XXVI Yay Paralimpiya Oyunlarında medal qazanan ölkələr*

| Ölkə | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1. Çin | 54 | 35 | 30 | 119 |
| 2. B.Britaniya | 26 | 20 | 22 | 68 |
| 3. Rusiya PK | 19 | 11 | 31 | 61 |
| 4. ABŞ | 17 | 19 | 12 | 48 |
| 5. Ukrayna | 12 | 26 | 14 | 52 |
| 6. Avstraliya | 11 | 17 | 14 | 42 |
| 7. Brazilya | 11 | 8 | 15 | 34 |
| 8. İtaliya | 10 | 11 | 12 | 33 |
| 9. Niderland | 10 | 8 | 6 | 24 |
| 10. AZƏRBAYCAN | 9 | 0 | 4 | 13 |
| 11. İspaniya | 6 | 11 | 3 | 20 |
| 12. İran | 5 | 5 | 1 | 11 |
| 13. Özbəkistan | 5 | 4 | 6 | 15 |
| 14. Belarus | 5 | 1 | 1 | 7 |
| 15. Fransa | 4 | 8 | 16 | 28 |
| 16. Yaponiya | 4 | 5 | 11 | 20 |
| 17. İsrail | 4 | 2 | 1 | 7 |
| 18. Almaniya | 3 | 3 | 9 | 15 |
| 19. Polşa | 3 | 3 | 7 | 13 |
| 20. Macarıstan | 3 | 2 | 2 | 7 |
| 21. Meksika | 3 | 1 | 5 | 9 |
| 22. Nigeriya | 3 | 1 | 2 | 6 |
| 23. Belçika | 3 | 0 | 4 | 7 |
| 24. İordaniya | 3 | 0 | 1 | 4 |
| 25. Kolumbiya | 2 | 4 | 7 | 13 |
| 26. Hindistan | 2 | 4 | 1 | 7 |
| 27. Y.Zelandiya | 2 | 3 | 1 | 6 |
| 28. Çili | 2 | 2 | 0 | 4 |
| 28. İrlandiya | 2 | 2 | 0 | 4 |
| 30. Danimarka | 2 | 1 | 1 | 4 |
| 30. İsveçrə | 2 | 1 | 1 | 4 |
| 30 Tunis | 2 | 1 | 1 | 4 |
| 33. CAR | 2 | 1 | 0 | 3 |
| 34. Norveç | 2 | 0 | 2 | 4 |
| 35. Kanada | 1 | 7 | 4 | 12 |
| 36. C.Koreya | 1 | 3 | 9 | 13 |
| 37. Qazaxıstan | 1 | 3 | 0 | 4 |
| 38. Türkiyə | 1 | 2 | 8 | 11 |
| 39. Əlcəzair | 1 | 2 | 4 | 7 |
| 40. Tayland | 1 | 1 | 3 | 5 |
| 41. Çexiya | 1 | 1 | 1 | 3 |
| 41. Slovakiya | 1 | 1 | 1 | 3 |
| 43. Malayziya | 1 | 1 | 0 | 2 |
| 43. İsveç | 1 | 1 | 0 | 2 |
| 45. Ekvador | 1 | 0 | 1 | 2 |
| 45. Şri-Lanka | 1 | 0 | 1 | 2 |
| 47. Efiopiya | 1 | 0 | 0 | 1 |
| 47. Monqolustan | 1 | 0 | 0 | 1 |
| 47. Sinqapur | 1 | 0 | 0 | 1 |
| 50. Misir | 0 | 4 | 2 | 6 |

* * *

Tokio-2020 Yay Paralimpiya Oyunlarında növbəti qızıl medal paraatletimiz Elvin Astanovdan gəlib. İdmançımız nüvəitələmə növündə bütün rəqiblərini qabaqlayıb. Təmsilçimiz 8,77 metr nəticə ilə Paralimpiya rekordunu yeniləyib.

* * *

Avqustun 29-da Azərbaycan atleti Elmir Cəbrayılov mübarizəyə başlayıb. Atletikanın 100 metr məsafəyə qaçış yarışlarında T13 kateqoriyasında yarışan idmançımız finala çıxa bilməyib. Belə ki, o, təsnifat mərhələsinin qrupunda beş nəfərin yarışdığı mübarizədə finişə gəlib çıxmayıb.

* * *

Tokioda keçirilən Yay Paralimpiya Oyunlarında mübarizə aparan digər atletimiz Kamil Əliyev atletikanın uzunluğa tullanma növündə (T12 kateqoriyası) yarışıb. İdmançımız Oyunlarda 6,89 metr nəticə göstərərək beşinci olub.

* * *

Tokioda keçirilən Yay Paralimpiya Oyunlarında Azərbaycana daha bir medalı Səid Nəcəfzadə qazandırıb. İdmançımız para-atletikanın uzunluğa tullanma növündə (T12 kateqoriyası) 7,03 metr nəticə göstərib. Bu nəticə ona bürünc medal qazanmağa kömək edib.

Olimpiya mükafatçılarımız

# İrina Kindzerska:

## “Gərgin və çətin yolun sonunda Olimpiya Oyunlarının medalı dayanır”

***Planetin ən mötəbər idman tədbiri olan Tokio-2020 Yay Olimpiya Oyunlarında komandamız olimpiadalar tarixində 7-ci sınağında 13 idman növü üzrə 44 idmançı ilə təmsil olundu. Olimpiya komandamız Tokio-2020-ni 3 gümüş, 4 bürünc medalla başa vurdu. Komandamıza gümüş medalları karateçilər Rafael Ağayev (75 kq), İrina Zaretska (+61 kq), sərbəst güləşçi Hacı Əliyev (65 kq) qazandırdı. Cüdoçumuz İrina Kindzerska (+78 kq), boksçumuz Alfonso Dominges (81 kq), yunan-Roma güləşçimiz Rafiq Hüseynov (77 kq) və qadın güləşçimiz (50 kq) Tokio Olimpiadasının bürünc medallarına sahib çıxdılar. Hər zaman Olimpiya Oyunlarını diqqətdə saxlayan “Olimpiya dünyası” qəzeti yarışlardan sonra da ənənəsinə sadiq qalır. Qəzetimiz medal qazanan idmançılarla olan müsahibələri oxucularına təqdim edir. Budəfəki müsahibimiz Tokio-2020-də komandamıza ilk medalı qazandıran cüdoçumuz İrina Kindzerskadır. Xanım cüdoçumuz qəzetimizə müsahibəsində Olimpiya Oyunlarındakı çıxışından və qarşıdakı planlarından danışdı.***

### “Komandamıza Tokio Olimpiadasının ilk medalını qazandırdığım üçün çox sevinirəm”

*- İrina, Tokio-2020 Yay Olimpiya Oyunlarının bürünc mükafatçısı olmağınız münasibəti ilə sizi təbrik edirik. Çoxdandır gözlədiyiniz və təxirə salındığını eşidəndə göz yaşlarınızı saxlaya bilmədiyiniz yarışda çıxışınızı necə qiymətləndirirsiniz?*

- Doğrudur, bu yarışı uzun müddət idi ki, səbrsizliklə gözləyirdim. Eşidəndə ki, Tokio Olimpiadası təxirə salındı, göz yaşlarımı saxlaya bilməmişdim. Bu hər bir idmançının böyük həvəslə gözlədiyi bir yarışdır. Tokio-2020 həqiqətən də mənim üçün ən unudulmaz hisslər keçirdiyim yarış oldu. Sevinc, kədər, həyəcan bir arada cəmləşmişdi. Qızıl medal qazana bilmədiyimə görə təəssüflənsəm də, Tanrı mənə olimpiadanın bürünc medalını qazanmağı nəsib etdi. İdmançı üçün bu Oyunlardan üstün bir yarış ola bilməz. Olimpiya Oyunlarının mükafatçısı olduğum üçün çox sevinirəm. Təbii ki, bu uğur heç də asan başa gəlmədi. Mübarizəyə 1/8 final mərhələsindən başlamışdım. Bu mərhələdə Bosniya və Herseqovinanı təmsil edən Larisa Tseriçə, 1/4 finalda isə Cənubi Koreya təmsilçisi Min-Cin Hana qalib gəlmişdim. Növbəti görüşdə olimpiadada əsas rəqiblərimdən biri sayılan yaponiyalı Akira Soneyə məğlub oldum. Lakin hələ də medal qazanmaq şansım qalırdı. Bunun üçün keçirəcəyim son görüşü qələbə ilə başa vurmalı idim. Başa düşürdüm ki, bütün gücümü sərf edib medal qazanmalıyam. Çünki Olimpiya Oyunları digər yarışlar kimi qısa müddətdə təşkil olunmur. Buna görə də həlledici görüşdə çinli Şiyan Hu ilə qarşılaşmaya xüsusi motivasiya ilə çıxmışdım. Gərgin keçən görüşdə qalib gələrək, bürünc medala sahib çıxdım. Həqiqətən də, idmanda gərgin və çətin yolun sonunda Olimpiya Oyunlarının medalı dayanır. Hər kəsin medal gözlədiyi bir anda komandamıza Tokio Olimpiadasının ilk medalını qazandırdığım üçün çox sevinirəm.

*- İrina, cüdo üzrə milli komandamızın medal qazanması üçün son şans siz idiniz. Belə bir məsuliyyətli anda cüdoçularımızın ardıcıl məğlub olması sizə mənfi təsir etmədi ki?*

- Çıxışıma qədər, idmançılarımızın bütün döyüşlərini izləmişdim. Təəssüf ki, cüdoçularımız mübarizələrini yarıda dayandırmışdılar. Növbə mənə çatanda isə təbii ki, həyəcan hissləri keçirirdim. Çünki üzərimə düşən bu ağır məsuliyyəti yaxşı dərk edirdim. Amma çox sevinirəm ki, özümlə bacardım və həyəcanımı dəf edə bildim.

*- Dünyanın ən güclü idmançıları ilə üz-üzə idiniz. Bu çətin döyüşdə özünüzü necə ruhlandırırdınız?*

- Rəqiblərimin hamısını yaxşı tanıyıram. Onların hansı fəndləri və necə yerinə yetirdiklərini çox yaxşı bilirəm. Buna görə də, onların atacağı addımı əvvəlcədən görməyə çalışırdım. Məhz bu səbəbdən onların da mənim kimi idmançı olduqlarını, səhv edib məğlub ola biləcəklərini düşünüb, özümü qələbəyə kökləyirdim.

*- Qalibiyyətdən sonra sevinc hisslərinizə ilk kim şərik oldu?*

- Qələbəmdən sonra mənə ilk olaraq həyat yoldaşım Həmid Əliyev zəng etdi. O, təbriklərini çatdıraraq, mənimlə qürur duyduğunu bildirdi. Yoldaşım Azərbaycanın Cəbrayıl rayonundandır. Mənə deyirdi ki, Cəbrayılda vəziyyət düzəlsin, ora səfər edəcəyik və bu bürünc medalı Xudafərin körpüsünün yanında boynumuzdan asacağıq. O, mənim bu uğuruma görə çox sevindi.

Yoldaşımdan sonra təbii ki, məşqçim, valideynlərim və dostlarım əlaqə saxladı. Hər biri bu qələbənin böyük nailiyyət olduğunu deyərək, xoş sözlərini bildirdilər. Bu isə idmançı üçün ən möhtəşəm hisslər və gələcək uğurlar üçün böyük stimuldur.










*- Ümumiyyətlə, Tokio-2020 Sizin üçün nə ilə yadda qaldı?*

- Tokioda cəmi üç gün qaldım. Bu günlər ərzində də yalnız döyüşlərim və qələbə barədə düşündüm. Ümumiyyətlə, qeyd edim ki, yarışlar müddətində məkanı tərk etmək qadağan idi. Buna görə də, həmkarlarımla şəhərdə gəzmək imkanım olmadı. Lakin daha əvvəl Yaponiyaya səfər etdiyim üçün demək olar ki, oranın bir çox maraqlı yerlərinə baş çəkmişdim.

*- Pandemiya və bütün qadağalara baxmayaraq, Olimpiya Oyunları gec də olsa təşkil olundu. Belə bir çətin vaxtda Oyunların təşkil olunma səviyyəsini necə qiymətləndirirsiniz?*

- Düzdür, uzun müddətdir gözlənilən, idmanaçıların həvəslə və həyəcanla gözlədiyi Olimpiya Oyunlarının təxirə salınması hər birimizə çox pis təsir etmişdi. Etiraf edim ki, son günə qədər Oyunların yenidən ləğv olunacağı düşüncəsi məni çox qorxudurdu. Amma şükürlər olsun ki, gec də olsa bu Oyunlar təşkil olundu. Belə bir çətin şəraitdə isə təşkilatçılığı yaxşı qiymətləndirmək olar.

*- Həyat yoldaşınızın valideynlərinin Bakıda yaşadığını bilirik. Qohumlarınıza baş çəkməyə vaxtınız oldumu?*

- Əslində, Olimpiya Oyunlarına bir həftə qalmış Bakıda məşq zalının yaxınlığında yerləşən hoteldə qalırdım. Bu, mənə yolda sərf edəcəyim həm zamana, həm də enerjimə qənaət etməyə kömək oldu. Həyat yoldaşımın ailəsi də mənim seçimimə hörmətlə yanaşıb, mənə yalnız dəstək olurdu. Lakin Oyunlardan dərhal sonra həyat yoldaşımın ailəsinin yanına gəldim və burada onlarla birgə qalıram. Həyat yoldaşım isə bir müddət sonra Bakıya gəldi və mən artıq burada onu qarşıladım. Qeyd edim ki, həyat yoldaşımın ailəsi çox mehriban və səmimi insanlardır.

*- Bildiyimizə görə, həyat yoldaşınız Həmid Əliyevin soyadına keçmisiniz. Bundan sonra sizə Əliyeva, yoxsa Kindzerska deyə müraciət edək?*

- Mən artıq 2016-cı ildən Əliyeva soyadını daşıyıram. Yəni ailə həyatı qurduqdan sonra həyat yoldaşımın soyadına keçmişəm. Yalnız idmanda Kindzerska olaraq qalmağa qərar verdim. Olimpiya Oyunlarının medalını Kindzerska olaraq qazandım. İdman karyeramın yeni dövrü artıq Əliyeva olaraq davam edəcək. Mənim üçün hər iki soyad doğmadır. Yəni məni həm Əliyeva, həm də Kindzerska kimi təqdim etmək olar. Kindzerska soyadına görə mənim legioner olduğumu düşünürlər. Lakin Azərbaycan mənim üçün çox doğmadır. Hesab edirəm ki, Əliyeva soyadı bu mübahisəyə birdəfəlik aydınlıq gətirəcək.

*- İrina, çox mülayim və xoşxasiyyətli birisiniz. Bəs hansı Azərbaycan idmançıları ilə dost münasibətləri yaratmısınız?*

- İdmançıların hamısı ilə münasibətim yaxşıdır. Amma daha çox həmyerlim Mariya Stadnik ilə səmimi münasibətim var. Bu xanımda bəyəndiyim daha bir xüsusiyyət odur ki, əldə etdiyi yüksək nailiyyətlərə baxmayaraq, çox sadə və səmimi insan olmasıdır. O, Tokio-2020-də 4-cü Olimpiya medalını qazandı. Bu təbii ki, çox böyük uğurdur. İndi onun yerində olmaq istəyən neçə gənc idmançı var. Bundan əlavə karateçi İrina Zaretska və Anna Skidanla da səmimi dost münasibətlərim var.

*- Gündəlik məşqlər, yarışlar və bitməyən ev işləri. Maraqlıdır, elə an olubmu ki, bütün bunlardan yorulub, idmandan uzaqlaşmaq və özünüzü sırf ailənizə həsr etməyi düşünmüsünüz?*

- Əlbəttə, bu fikir ağlıma dəfələrlə gəlib (gülür). Düşünürəm ki, bu məsələdə mən tək deyiləm. Lakin bu bir neçə saniyəlik xəyal olur. Sonra həqiqi həyata qayıdıb həyatımda idman olmadan yaşaya bilməyəcəyimi anlayıram. Yarışlar və qələbə qazanmaq istəyi, ən əsası isə Olimpiya Oyunlarının medalını qazanmadan karyeramı bitirmək istəmirdim.

*- Hazırda Bakıdasınız. Gələcək planlarınızı bilmək olarmı?*

- Hazırda səbirsizliklə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idmançılarla təşkil olunacaq görüşünü gözləyirəm. Bu görüşdən sonra Azərbaycan Cüdo Federasiyanın prezidenti ilə görüş olacaq. Sonra isə bir qədər istirahət edib, gərgin yarışların həyəcanını üzərimdən atmaq istəyirəm. Paytaxtda isə həyat yoldaşımla birgə Bakının gözəl məkanlarını gəzirik.

İstirahətdən sonra yenidən məşqlərə başlayacağıq. Qarşıda bizi dünya, Avropa çempionatları və V İslam Həmrəyliyi Oyunları gözləyir. Bu yarışlarda da iştirak etmək və medal qazanmaq əsas məqsədlərimdən biridir.

***Türkay Niftəliyeva***

# I MDB Oyunları: komandamızın bayraqdarı müəyyənləşib

Kazanda keçiriləcək birinci MDB Oyunlarının açılış mərasimində Azərbaycan nümayəndə heyətinin bayraqdarı müəyyənləşib. Yunan-Roma güləşçimiz Həsrət Cəfərov komandamızın



bayraqdarı olacaq. H.Cəfərov (67 kq) bu yaxınlarda Rusiyanın digər şəhəri - Ufada keçirilən dünya çempionatının qalibi olub.

Açılış mərasimində pandemiya ilə əlaqədar olaraq, hər ölkədən yalnız 30 nəfər idmançının iştirakı nəzərdə tutulub.

Sentyabrın 4-11-də keçiriləcək Oyunlarda Azərbaycan böyük nümayəndə heyəti ilə təmsil olunacaq.

Komandamız badminton (8 idmançı), basketbol (4), boks (9), cüdo (16), futzal (13), stolüstü tennis (8), stend və güllə atıcılığı (3), karate (20), kəmər güləşi (4), küreş (5), qadın güləşi (6), sambo (7), sərbəst güləş (10), yunan-Roma güləşi (9), muaytay (tayboks) (6) idman növlərində mübarizə aparacaqlar.

Nümayəndə heyətinin şef-demissionu Olimpiya çempionu, Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri Fərid Mansurovdur.

* * *

Rusiyanın Kazan şəhərində keçiriləcək I MDB Oyunları üçün Azərbaycanın güləş yığmalarının heyəti açıqlanıb. Yunan-Roma güləşi üzrə gənclərdən ibarət milli böyük məşqçi Nurəddin Rəcəbov və məşqçi Turac Hüseynlinin rəhbərliyi altında mübarizə aparacaq. Heyətdə Nihad Quluzadə (55 kq), Nihat Məmmədli (60 kq), Ümidəli Musayev (63 kq), Həsrət Cəfərov (67 kq), Qurban Qurbanov (72 kq), Elcan Məmmədov (77 kq), Laçın Vəliyev (87 kq) və Sərxan Məmmədov (130 kq) yer alıb.

Böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında Əliabbas Rzazadə (57 kq), Tural Hüseynov (61 kq), Sabir Cəfərov (65 kq), Namus Orucov (70 kq), Cəbrayıl Hacıyev (74 kq), Əşrəf Aşırov (79 kq), Abubakr Abakarov (86 kq), Osman Nurməhəmmədov (92 kq), İslam İlyasov (97 kq) və Aydın Əhmədov (125 kq) sərbəst güləş üzrə yarışda uğur qazanmağa çalışacaq.

Qadınlara gəlincə, məşqçi Rövşən Umudovun rəhbərliyi altında Şəhanə Nəzərova (50 kq), Tatyana Varansova (53 kq), Yasəmən Məcidli (55 kq), Jalə Əliyeva (59 kq) və Birgül Soltanova (62 kq) Kazanda çıxış edəcək.

Qeyd edək ki, komandalar dünən Rusiyaya yollanıb. Beynəlxalq dərəcəli hakimlərdən Vüqar Şükürovla Əli Babayev I MDB Oyunlarında ədaləti qoruyacaq. İlk dəfə keçiriləcək oyunlarda 16 idman növü üzrə 1 172 idmançı mübarizə aparacaq. Sərbəst və qadın güləşi üzrə yarışlarda 23 yaşadək idmançılar çıxış edəcək. Yunan-Roma güləşi üzrə mübarizə isə 20 yaşadək olan pəhləvanlar arasında baş tutacaq.

Təmsilçilərimiz sentyabrın 3-də mübarizəyə başlayacaq. Növbəti gün isə sərbəst və qadın güləşçilər qüvvələrini sınayacaqlar. Görüşlər Bakı vaxtı ilə saat 11:30-da başlayacaq. Medallar uğrunda qarşılaşmalar isə 16:00-da start götürəcək.

# *Sabiq BOK prezidenti 79 yaşında vəfat edib*



2000-ci ildə Bakıda açılan ilk Olimpiya kompleksinin açılışında iştirak etmiş və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının fəxri doktoru seçilmiş sabiq BOK prezidenti Jak Roqq 79 yaşında vəfat edib.

Jak Roqq 1942-ci il mayın 2-də Belçikanın Gent şəhərində anadan olub. Qayıqsürmə idman növü ilə məşğul olan J.Roqq öz ölkəsinin 15 qat çempionu olub. Jak Roqq məşğul olduğu yelkənin "Finn" sinfində dünya çempionu titulunun da sahibi olub. O, 3 dəfə Olimpiya oyunlarında iştirak edib. Jak Roqq Tibb Universitetinin cərrahiyə, ortopediya, yeni insan bədənindəki əyilmiş sümüklərin, üzvlərin və s. müalicəsi fakültəsini bitirib. Bu sahədə doktorluq dissertasiyası müdafiə edib.

1976-cı ildə Belçikada MOK-un prezidenti seçilib. 1989-cu ildə AOK-un prezidenti vəzifəsinə namizədliyi irəli sürülüb. 1999-cu ildə J.Roqq Dünya Dopinq Əleyhinə Agentliyinin üzvü olub.

O, 1991-ci ildə BOK-un hüquqlu üzvü kimi fəaliyyətə başlayıb. 1998-ci ildə BOK-un icra komitəsinin üzvü seçilib. 2000-ci ildə Jak Roqqun BOK prezidentliyinə yolu paytaxtımız Bakıdan başlanıb.

MOK-un prezidenti İlham Əliyevin sədrliyi ilə onun BOK prezidenti olmağa namizədliyi irəli sürülüb. 2001-ci il iyulun 16-da Moskvada BOK-un 112-sessiyasında X.A.Samaranç istefa verib və Jak Roqq BOK-un 107 illik tarixinin 8-ci və Henri de Bayle Laturdan sonra ikinci belçikalı rəhbəri olub. O, 2000-ci ildə Bakıda açılan ilk Olimpiya kompleksinin açılışında iştirak edib və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının fəxri doktoru seçilib.

Jak Roqq XXVIII, XXIX, XXX Yay və XIX, XX, XXI Qış Olimpiya Oyunlarına rəhbərlik edib.

# Gimnastımız Bolqarıstanda bürünc medala sahib çıxdı

Bolqarıstanda aerobika gimnastikası üzrə 12-ci "Plovdiv Cup" açıq turniri keçirilib. Turnirdə ölkəmizi Vladimir Dolmatov, Nurcan Cabbarlı, Dilarə Qurbanova və Məryəm Topçubaşova təmsil ediblər.

Son dünya çempionatının finalçısı olan V.Dolmatov bu yarışda da fərqlənməyi bacarıb. Bu dəfə o, fəxri kürsünün üçüncü pilləsində yer alıb. İlk iki yerdə isə Meksika və İtaliya təmsilçiləri qərarlaşıblar.




# *Taekvondoçularımız Avropa birinciliyini uğurla başa vurdular*

Estoniyanın Tallin şəhərində kiçikyaşlı yeniyetmələr, yeniyetmə və 21 yaşlı taekvondoçular arasında təşkil olunan Avropa birinciliyinə yekun vurulub.

Azərbaycan Taekvondo Federasiyasından verilən məlumata görə, yeniyetmələr arasında Məhəmməd Həsənli (37 kq) qızıl medal, Hüseyn Xudiyev (65 kq), Vasif Səlimov (45 kq), İslam Əhmədzadə (53 kq), Nərgiz Kazımova (47 kq) gümüş medal, Zəhra İsayeva (29 kq) və İlyas Hətəmli (33 kq) bürünc medala sahib olublar.

Kiçikyaşlı yeniyetmələrdən isə "Əli-Mehdi" taekvondo klubunun yetirməsi olan Çingiz Həsənov (36 kq) qızıl medal, "Ümid" taekvondo klubunun təmsilçisi Sabir Məmmədli isə gümüş medala layiq görülüb.

Qeyd edək ki, yarışları idarə edənlər arasında Azərbaycanın beynəlxalq dərəcəli hakimi Aygül Abdullayeva da olub. Komandamız yarışda Azərbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Niyaməddin Paşayevin rəhbərliyi altında iştirak edib.



# Gənc cüdoçularımız Türkiyədə təlim-məşq toplanışında iştirak edirlər

Azərbaycanın cüdo üzrə gənclərdən ibarət milli komandası Türkiyənin Samsun şəhərində beynəlxalq təlim-məşq toplanışında iştirak edir. Toplanışa perspektivli gənc cüdoçularımızla yanaşı, qardaş Türkiyənin də milli komandasının üzvləri qatılıblar. Gənclərdən ibarət millinin üzvləri məşqçilər Şümşat Bəhramov və İlham Məmmədovun başçılığı altında gündə iki dəfə məşq edərək, gələcəkdə keçiriləcək mötəbər yarışlara hazırlaşırlar.

Qeyd edək ki, gənc cüdoçularımız sentyabrın 9-dan 12-dək Lüksemburqda keçiriləcək Avropa birinciliyində mübarizə aparacaqlar.

# Voleybol Federasiyaları arasında əməkdaşlıq məsələləri müzakirə olunub



Azərbaycan Voleybol Federasiyasının (AVF) baş katibi, Avropa Voleybol Konfederasiyasının (CEV) İdarə Heyətinin üzvü Cəlil Cəfərov Serbiya Voleybol Federasiyasının prezidenti Zoran Qayiç və CEV nümayəndə heyəti ilə görüşüb.

AVF-dən verilən məlumata görə, Belqradda keçirilən görüşdə Azərbaycanın və Serbiyanın Voleybol federasiyaları arasındakı dostluq münasibətinin daha da möhkəmlənməsi və qarşıda duran planlardan danışılıb.

* * *

Qadın voleybolçulardan ibarət Azərbaycan milli komandası Avropa çempionatında mübarizəni dayandırıb. Serbiya, Bolqarıstan, Xorvatiya və Rumıniyanın ev sahibliyi etdiyi turnirdə komandamız A qrupunda yarışıb. Komandamız oyunlarını Serbiyada keçirib.

Yığmamız qrupda keçirdiyi Belçika, Rusiya, Serbiya, Bosniya və Herseqovina milli komandaları ilə oyunlarda 0:3 hesabı ilə məğlub olub. Komandamız qrup mərhələsində sonuncu oyununda Fransa yığması ilə qarşılaşıb. Görüş Fransa millisinin 3:1 hesablı qələbəsi ilə yekunlaşıb. Qrup mərhələsində bütün görüşləri məğlubiyyətlə başa vuran Azərbaycan millisi Avropa çempionatında mübarizəni dayandırıb.

# Həndbol yarışının qalibləri müəyyənləşdi

Şağan Olimpiya İdman Kompleksinin açıq meydançasında qızlar arasında həndbol üzrə seçmə yarış keçirilib. Yarış Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin dəstəyi, Xüsusi Olimpiya Komitəsinin təşkilatçılığı ilə baş tutub. Turnirin yekunlarına görə, ən güclü divizionda birinci yeri sərbəst məşqçi Lyudmila Qasıyevanın komandası tutub. İkinci yerə Xəzər rayonu valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün 2 saylı ümumi orta internat məktəbinin, üçüncü pilləyə isə Nizami rayonu 3 saylı xüsusi təhsil məktəbinin komandaları sahib olublar.

Yarış xüsusi internat, tam və inklüziv orta məktəblərin və sosial müəssisə şagirdlərindən, məzunlarından, eyni zamanda ailələrdən olan idmançılar arasında xüsusi Olimpiya proqramına uyğun keçirilib. Turnirdə 12 komandanın tərkibində 120 atlet mübarizə aparıb. Yarış 2022-ci ilin beynəlxalq turnirlərinə seçmə xarakteri daşıyır.

# OLİMPİYA 20 DÜNYASI



# Unudulmaz sənətkarlarımızın “Olimpiya dünyası”nda idmanla bağlı xatirələri

***Bu il 20 yaşını qeyd edəcək “Olimpiya dünyası” qəzeti bu müddət ərzində çoxsaylı oxucularına müxtəlif rubrikalarda yazılar təqdim edib. Bu rubrikalardan biri də “Sənətçi idman, idmançı sənət haqqında”dır. Adından göründüyü kimi, ölkəmizin tanınmış sənət adamları idmana olan marağından, idman sahəsində baş verən hadisələrdən danışır. Adlı-sanlı idmançılarımız isə incəsənətdən - kino, teatr və digər sahələrdə əldə etdikləri biliklərini oxucularla bölüşürlər. Bu sayımızda vaxtilə qəzetimizə müsahibə verən, lakin indi haqqın dərgahına qovuşan unudulmaz sənətkarları yada salacağıq. Xalq artistləri Əliabbas Qədirov və Muxtar Maniyevin “Sənətçi idman, idmançı sənət haqqında” rubrikası altında müxtəlif illərdə “Olimpiya dünyası” qəzetinə verdikləri müsahibələrindən maraqlı məqamları yenidən diqqətinizə çatdırırıq.***



## Əliabbas Qədirov: “Banişevski ilə bir komandada oynamışam”

- Uşaqlıqdan idmana böyük maraq göstərmiş, güləş və futbolla məşğul olmuşam. Anatoli Banişevski ilə bir



məktəbdə oxumuşam. Məktəblərarası Bakı birinciliyində onunla bir komandanın tərkibində oynayırdım. Mən sağ, Əlibala adlı yoldaşımız sol, Banişevski isə mərkəz hücumçusu idi. Tez-tez qol vurur, məhsuldar ötürmələrim ilə komandamızın hesabda irəli çıxmasına şərait yaradırdım. O vaxt mənə elə gəlirdi ki, Banişevskidən yaxşı oynayıram. Amma sonralar gördüm ki, A.Banişevski çox böyük futbolçudur.

### “İnstitut yığma komandasının ən yaxşı hücumçularından idim”

- Sonralar da bu sevimli idman növündən əl çəkmədim. Ali məktəbdə oxuyarkən institutun yığma komandasının ən yaxşı hücumçularından oldum. Yaxşı yadımdadır: bir dəfə Azərbaycan Dövlət Neft Akademiyasının komandası ilə yoldaşlıq görüşü keçirirdik. Oyun zamanı topu hücumçularımızdan birinə ötürdüm. Yeri gəlmişkən, deyim ki, həmin oğlan həmişə meydana əynində şalvar çıxardı. Hətta ali məktəblərarası futbol yarışında stadiona şalvarda çıxması üçün ona güclə icazə almışdıq. İnsafən, pis oyunçu deyildi. Qapıçını aldadıb, 3-4 metrlikdən topu həmin oğlana ötürdüm. Topa zərbə vurmaq istədikdə şalvarın balağı ayağına dolaşdı, buna baxmayaraq komandamıza bir qol qazandıra bildi.

### “Stolüstü oyun növlərinin azarkeşi deyiləm”

- Şahmat, dama, nərd oynamağı bacarsam da, bu cür stolüstü oyun növlərinin o qədər də azarkeşi deyiləm. Bunu, adətən, yorğunluğu çıxarmaq, istirahət etmək məqsədi ilə oynayırlar. Mən isə hətta məzuniyyətə çıxanda da işsiz dayana bilmirəm. Bir döyüş növü kimi karateni seyr etməkdən böyük zövq alıram. Bu idman növündə çəldlik, dəqiqlik, həm də estetik gözəllik var.

### “Yaxşı at sürürəm”

- Atçılıq idmanı ilə də məşğul olmuşam. Bir ay əvvəl bir tanışım: “Bu ata minmək təhlükəlidir”, - deyib ehtiyatlı olmağımı məsləhət gördü. Atın belinə qalxdım, bir qədər gəzdikdən sonra sahibinə qaytarıb: “Bu ki, heç yerimir”, - dedim. Belə bir atı ram etdiyim həmin adamı çox təəccübləndirmişdi. Hələ aktyorluq fəaliyyətinə başlamazdan əvvəl at sürməyi bacarırdım. Sonralar, 21-22 yaşlarımda daha mükəmməl at çapmağı Nəsib adlı bir kişidən öyrəndim. Bu, aktyorluq fəaliyyətimdə həmişə köməyimə çatır.

### “Sürətlə gedən atın üstündən qatara tullandım”

- 1972-ci ildə rejissor Hüseyn Seyidzadə məni “Qatır Məmməd” roluna dəvət etdi. Məni qrimləyib şəkilmi çəkdilər və əsərin qəhrəmanına oxşadığımı dedilər. O vaxt H.Seyidzadə mənə: “İki ay ərzində at sürməyi öyrənməlisən”,- dedi. Onun tapşırığını bir aya yerinə yetirdim. Şahə qalxan at üzərində necə şəstlə oturduğumu görəndə: “Bax, bu mənim qəhrəmanımdır”, - dedi. At sürməyi öyrənən aktyor yoldaşlarım ilə hərdən cıdırda yarışa çıxardıq. Heç kimi məndən irəli keçməyə qoymazdım.

Yevlax rayonunun 9 kilometrliyində filmin çəkilişləri gedirdi. Sürətlə gedən atın üstündən qatara tullanmalı idim. Direktor buna razı deyildi, amma rejissor: “İstəyirsə, qoy etsin”,- dedi. Bu tryuku iki dubla çəkdilər və mən onu çox asanlıqla yerinə yetirdim.

Filmi səsləndirmək üçün Moskvaya aparanda Hüseyn müəllimi smetada nəzərdə tutulduğu pulu boş yerə xərcləməkdə, filmin ssenariyə uyğun gəlməməsində təqsirli bilərək, onu məhkəmə ilə hədələdilər. Beləliklə, məşhur rejissoru filmdən uzaqlaşdırdılar. Sonra eyniadlı filmin çəkilişini başqa rejissora tapşırdılar və baş rolu mərhum Şahmar Ələkbərova həvalə etdilər.

“Babək” filmində Afşinin qardaşı rolunda çəkilmişəm və orada əsasən at çapma səhnələrini oynamışam. Əsas rollardan birini oynadığım “Aşığın arzuları” televiziya tamaşasının bəzi hissələri açıq havada çəkilmişdi və mən orada da at belində idim.

### “Uzaq məsafəyə üzməyi bacarıram”

- Dənizdə uzaq məsafəyə üzməyi bacarıram. Suda ayaqlarım qıc olmasa, ürəyim sancmasa, xeyli üzə bilərəm. İndi də həftədə bir neçə dəfə Ordu İdman Klubunun üzgüçülük hovuzuna gedirəm. Boksla məşğul olmasam da, məşhurların oyunlarına baxmaqdan zövq alıram.

### “Heç vaxt gülləm boşa çıxmır”

- Tüfəng atmağı dostlarla ovda öyrənmişəm. Hərdən bir ovda gülləmin boşa çıxmadığını görən dostlarım təəccüblə soruşurlar: “Bəs deyirdin ata bilmirsən? Necə oldu ki, hədəfin boşa çıxmadı”. Mən də, “Yəqin ki, bu, əlimin əsməməsi, hədəfi düzgün seçə bilməyim ilə bağlıdır”,- deyirəm. Yaş ötür, insan qocaldıqca ağrılar da artmağa başlayır. Əlimdə, ayağımda və belimdə müəyyən ağrılar hiss edən kimi evimdəki turnikdə bir neçə dəfə dartınmaq köməyimə çatır.

## Muxtar Maniyev: “Heç bir döyüşdə nokautla qalib gəlməmişəm”

- Bakının ən məşhur təhsil müəssisələrindən biri olan 199 saylı məktəbdə oxuyurdum. Məktəbimizdə idman dərsləri riyaziyyat, fizika, rus dili və s. fənnlər kimi çox yüksək səviyyədə tədris olunurdu. Bizə idman dərslərini Tofiq Bəhramov keçirdi. O vaxt məktəblərin həyətindəki meydançalarda komandalar futbol oynamaq üçün növbəyə dayanardılar. Bəzən iki-üç komandanın tərkibində 4-5 saat futbol oynayırdım. Bədən tərbiyəsi dərslərində müntəzəm iştirak etməklə yanaşı, hərəmiz xüsusi bir idman növü ilə məşğul olurduq. Mən boks bölməsinə gedirdim. Məşqçim tanınmış boksçu Abbas Ağalarov idi. Bundan başqa, məşhur boksçu Manı Maniyev əmim oğlu idi. Zənnimcə, ən yaxşı tərbiyəçi insanı əhatə edən mühitdir. Qohumlardan biri məni stadiona, o biri kinoya, başqa birisi muzeyə aparardı.

### “Məni hərbi hissədə boks üzrə məşqçi təyin etmişdilər”

- Əsgəri xidmətdə Moskva hərbi dairəsində hava hücumlarından müdafiə qoşunlarında olmuşam. Məni hərbi hissədə boks üzrə məşqçi təyin etmişdilər. O vaxt azərbaycanlılara münasibət o qədər də ürəkaçan deyildi. Burada bütün azərbaycanlıları bir yerə topladım və onları boksa cəlb etdim. Məşqləri şəhərdə aparırdıq. Başqa millətlərdən olan əsgərlər boksçu olduğumuza görə bizə kobud söz deməyə cürət etmirdilər.

### “Qaydasız döyüşlə aram yoxdur”

- Boks üzrə ustalığa namizəd idim. Əgər idmançı olsa idim, böyük nailiyyətlər qazanardım. Amma idmanla



bədənimi möhkəmləndirmək üçün məşğul olurdum.

Təvazökarlıqdan uzaq olmasın, çox rəhmli insanam. Hansısa bir döyüşü nokautla uddüğum yadıma gəlmir. Buna görə də qaydasız döyüşlə aram yoxdur.

### “Həftədə xizəklə 5 km məsafə qət etməliydik”

- Əsgəri xidmət illərində həm də xizək sürməyi öyrəndim. Daha doğrusu, bunu bizdən tələb edirdilər. Həftədə xizəklə 5 kilometr məsafə qət etməliydik. Ayaqlarım qabar olsa da, öyrəndim. Bundan başqa, hündürlükdən tullanmanı da hərbi xidmət zamanında öyrənmişdim.

### “Hündürlükdən dənizə tullanırdım”

- Sahildə doğulanların heç də hamısı üzməyi bacarmır. Məsələn, mərhum Eldəniz Zeynalov Bakıda doğulsa da, sudan qorxurdu. Eldənizlə həm orta, həm də ali məktəbdə bir oxumuşuq. Rəhmətlik 4 illik institutu 7 ilə qutardığından bir çox aktyorlarla eyni qrupda oxumuşdu. O, dənizə gedəndə həmişə zarafatla deyərdim ki, özünlə bir fincan da götür. Suya girmirdi, bircə ayaqlarını isladırdı. Mən isə heç vaxt sudan qorxmurdum. O vaxt Qız Qalasının yaxınlığında çimərlik var idi. Kişilər üçün tikilmiş “zaqarelka”nın üstündən dənizə tullanardım.

### “Yaxşı nərd oynayıram”

- Şahmat, dama, bir sözlə, stolüstü idman növlərinin əla oyunçusuyam. Təvazökarlıqdan uzaq olsa da, mənim kimi yaxşı nərd oynayan adam tapa bilməzsiniz. Çəkiliş zamanı boş



vaxtlarımız çox olurdu, bekarçılıqdan aktyorlarla şahmat, domino, nərd oynayardıq. Həm də yaxşı at çapmağım var. “Çarvadarların izi ilə” filmini Lahıcda çəkəndə səhərdən axşama qədər atdan düşmürdüm. Elə buna görə də bir nəfər mənə yaxınlaşıb: “Ay oğul, özünə yazığın gəlmir, heç olmasa, bu ata yazığın gəlsin”, - dedi. Elə aktyorlar var idi, atı görəndə qorxurdular.

### “Sərbəst güləşdə ayaqdan da tutmaq olar”

- Belə bayramlarda idmançılar özfəaliyyət nümunələri göstərirdilər. Bir dəfə Əmir adlı bir müəllimimiz məndən soruşdu: “Ay Muxtar, güləşmək güləşməkdir, bəs bunların adları niyə müxtəlifdir: fransız, sərbəst, milli?” Cavab verdim ki, Əmir müəllim, fransız güləş növündə qurşaqdan yuxarı tutmaq qaydadır. Sərbəst güləşdə ayaqdan da tutmaq olar. Milli güləşdə isə badalaq da vurmaq olar. Bunu eşidən kimi müəllimim: “Vay dədə, müsəlmanınkı badalaqsız keçmir”, - dedi.

# AFFA prezidenti "Qarabağ" klubunu təbrik edib

"UEFA-nın yeni təsis etdiyi, bu mövsümdən etibarən keçirilən UEFA Avropa Konfrans Liqasında qrup mərhələsinə vəsiqə qazanması münasibətilə "Qarabağ" klubunu təbrik edirəm. Artıq 8-ci mövsümdür ki, "Qarabağ" ardıcıl olaraq avrokuboklarda qrup mərhələsində oynamaq hüququ qazanır". Bu sözləri Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) prezidenti Rövnəq Abdullayev assosiasiyanın saytına açıqlamasında deyib. R.Abdullayev bildirib ki, 6 dəfə UEFA Avropa Liqası, 1 dəfə UEFA Çempionlar Liqasının qrup mərhələsində mübarizə aparan Ağdam klubu bu dəfə eyni uğuru yeni turnirdə də təkrarlamağı bacardı. "Bu, böyük müvəffəqiyyətdir. Cari avrokubok mövsümündə təmsilçimizə bir qədər də irəliləyərək UEFA Avropa Konfrans Liqasının play-off mərhələsinə vəsiqə qazanmasını arzu edirəm. Bir daha "Qarabağ" klubunun futbolçularını, məşqçi və texniki heyətini, rəhbərliyini, azarkeşlərini və ölkəmizin futbol ictimaiyyətini bu nəticə münasibətilə təbrik edirəm".

# "Beşiktaş"ın rəqibləri İstanbulda müəyyənləşdi

UEFA Çempionlar Liqasında 2021/2022 mövsümünün qrup mərhələsinin püşkü atılıb. İstanbulda keçirilən tədbirdə 32 klub 8 qrupa bölünüb. Türkiyənin təmsilçisi "Beşiktaş" C qrupunda "Sportinq" (Portuqaliya), "Borussiya" (Dortmund, Almaniya) və "Ayaks"la (Niderland) birgə mübarizə aparacaq. Qeyd edək ki, ilk turun oyunları sentyabrın 14-15-də keçiriləcək.



**A qrupu**

"Mançester Siti" (İngiltərə)
PSJ (Fransa)
"Leyptsiq" (Almaniya)
"Brügge" (Belçika)

**B qrupu**

"Atletiko" (İspaniya)
"Liverpul" (İngiltərə)
"Portu" (Portuqaliya)
"Milan" (İtaliya)

**C qrupu**

"Sportinq" (Portuqaliya)
"Borussiya" (Dortmund, Almaniya)
"Ayaks" (Niderland)
"Beşiktaş" (Türkiyə)

**D qrupu**

"İnter" (İtaliya)
"Real" (İspaniya)
"Şaxtyor" (Donetsk, Ukrayna)
"Şerif" (Moldova)

**E qrupu**

"Bavariya" (Almaniya)
"Barselona" (İspaniya)
"Benfika" (Portuqaliya)
"Dinamo" (Kiyev, Ukrayna)

**F qrupu**

"Vilyarreal" (İspaniya)
"Mançester Yunayted" (İngiltərə)
"Atalanta" (İtaliya)
"Yanq Boyz" (İsveçrə)

**G qrupu**

"Lill" (Fransa)
"Sevilya" (İspaniya)
"Zalsburq" (Avstriya)
"Volfsburq" (Almaniya)

**H qrupu**

"Çelsi" (İngiltərə)
"Yuventus" (İtaliya)
"Zenit" (Rusiya)
"Malmö" (İsveç)



# UEFA Konfrans Liqası: "Qarabağ"ın rəqibləri müəyyənləşdi

Avqustun 27-də Konfrans Liqasında qrup mərhələsinin püşkü atılıb. Türkiyənin İstanbul şəhərində keçirilən tədbirdə təmsilçimiz "Qarabağ" H qrupunda "Bazel" (İsveçrə), "Kayrat" (Qazaxıstan) və "Omoniya" (Kipr) komandalarına rəqib olub.

**A qrupu:** LASK (Avstriya), "Makkabi" (Təl-Əviv, İsrail), "Alaşkert" (Ermənistan), HİK (Finlandiya)

**B qrupu:** "Gent" (Belçika), "Partizan" (Serbiya), "Flora" (Estoniya), "Anortosis" (Kipr)

**C qrupu:** "Roma" (İtaliya), "Zarya" (Luqansk, Ukrayna), "MOİK-Sofiya" (Bolqarıstan), "Bodo Qlimt" (Norveç)

**D qrupu:** AZ (Niderland), ÇFR (Kluj, Rumıniya), "Yablonets" (Çexiya), "Randers" (Danimarka)

**E qrupu:** "Slaviya" (Praqa, Çexiya), "Feyenoord" (Niderland), "Union Berlin" (Almaniya), "Makkabi" (Hayfa, İsrail)

**F qrupu:** "Kopenhagen" (Danimarka), PAOK (Yunanıstan), "Slovan" (Bratislava, Slovakiya), "Linkoln" (Cəbəllütariq)

**G qrupu:** "Tottenhem" (İngiltərə), "Renn" (Fransa), "Vitess" (Niderland), "Mura" (Sloveniya)

**H qrupu:** "Bazel" (İsveçrə), "Qarabağ" (Azərbaycan), "Kayrat" (Qazaxıstan), "Omoniya" (Kipr).

# Avropa Liqasında 32 komanda 8 qrupa bölünüb

UEFA Avropa Liqasında qrup mərhələsinin püşkü atılıb.

Belə ki, 32 komanda 8 qrupa bölünüb. Azərbaycan millisinin üzvü Mahir Emrelinin çıxış etdiyi "Legiya" C qrupunda "Napoli" (İtaliya), "Lester" (İngiltərə) və "Spartak"la (Rusiya) mübarizə aparacaq. Qardaş Türkiyə təmsilçisi "Qalatasaray" E qrupunda "Latsio" (İtaliya), "Lokomotiv" (Rusiya) və "Marsel"ə (Fransa) rəqib olub. "Fənərbağça" isə D qrupunda "Olimpiakos" (Yunanıstan), "Ayntraxt" (Almaniya) və "Antverpen"lə (Belçika) birgə yarışacaq. Qeyd edək ki, qrup mərhələsi sentyabrın 16-da başlayacaq.




**A qrupu**

"Lion" (Fransa)
"Reyncers" (Şotlandiya)
"Sparta" (Çexiya)
"Brondbü" (Danimarka)

**B qrupu**

"Monako" (Fransa)
PSV (Niderland)
"Real Sosyedad" (İspaniya)
"Şturm" (Avstriya)

**C qrupu**

"Napoli" (İtaliya)
"Lester" (İngiltərə)
"Spartak" (Rusiya)
"Legiya" (Polşa)

**D qrupu**

"Olimpiakos" (Yunanıstan)
"Ayntraxt" (Almaniya)
"Fənərbağça" (Türkiyə)
"Antverpen" (Belçika)

**E qrupu**

"Latsio" (İtaliya)
"Lokomotiv" (Rusiya)
"Marsel" (Fransa)
"Qalatasaray" (Türkiyə)

**F qrupu**

"Braqa" (Portuqaliya)
"Srvena Zvezda" (Serbiya)
"Ludoqorets" (Bolqarıstan)
"Midüllənd" (Danimarka)

**G qrupu**

"Bayer" (Almaniya)
"Seltik" (Şotlandiya)
"Betis" (İspaniya)
"Ferentsvaroş" (Macarıstan)

**H qrupu**

"Dinamo" (Xorvatiya)
"Genk" (Belçika)
"Vest Hem" (İngiltərə)
"Rapid" (Avstriya)

İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik
olimpiyadunyasi.com onlayn qəzetindən oxuyun




# Ötən mövsümün ən yaxşılarının adları açıqlandı

UEFA Çempionlar Liqasında ötən mövsümün ən yaxşı futbolçusunun adı açıqlanıb. Türkiyənin İstanbul şəhərində təşkil olunan tədbirdə, bu ada İngiltərənin "Çelsi" klubunun yarımmüdafiəçisi Jorjinyo layiq görülüb. İtaliyalı oyunçu komanda yoldaşı Nqolo Kanteni və "Mançester Siti"nin futbolçusu Kevin De Bröyneni qabaqlayıb. Tədbirdə Avropada 2020/2021 mövsümünün ən yaxşı baş məşqçisinin adına da aydınlıq gəlib. Bu mükafata İngiltərənin "Çelsi" komandasının baş məşqçisi Tomas Tuxel layiq görülüb. 2020/2021 mövsümünün ən yaxşı qadın futbolçusu adına isə İspaniyanın "Barselona" klubunun oyunçusu Aleksiya Putelyas layiq görülüb. O, səsvermədə komanda yoldaşları Cennifer Ermoso və Like Martensi geridə qoyub.



# Dünya idmanı



## Maks Ferstappen Belçika Qran-prisinin qalibi elan olundu

Formula 1 üzrə dünya çempionatında Belçika Qran-prisinin 12-ci mərhələsi güclü yağış səbəbindən ləğv edilib. Yarış Belçikanın "Spa-Francorchamps" avtodromunda təşkil olunub. Yarış Bakı vaxtı ilə saat 16:00-a planlaşdırılsa da, yağışa görə təxirə salınıb. Sonra iştirakçılar ikinci dəfə yarışa başlamağa cəhd ediblər, pilotlar təhlükəsizlik maşınının arxasında bir neçə dairə keçiblər, amma hava şəraiti yarışı davam etdirməyə imkan verməyib. Bununla da təsnifatın ən yaxşısı olan "Red Bull"un niderlandlı pilotu Maks Ferstappen qalib elan edilib.




## Ronaldo 12 ildən sonra yenidən "Mançester Yunayted"ə qayıtdı

İtaliyanın "Yuventus" klubunun sabiq futbolçusu Kriştianu Ronaldo yenidən "Mançester Yunayted"ə transfer olub. Transfer "Qırmızı şeytanlar" üçün 25 milyon avroya başa gəlib. Beləliklə, Ronaldo 12 ildən sonra yenidən "Mançester Yunayted"ə qayıdıb.

Portuqaliya millisinin futbolçusu Kriştianu Ronaldonun "Mançester Yunayted"dəki maaşı da müəyyənləşib. 36 yaşlı hücumçu iki illik müqaviləsinə əsasən 58,3 milyon avro qazanacaq.

Onun İngiltərədəki illik maaşı 29,15 milyon avroya bərabərdir. Bu, Ronaldonun "Yuventus"dakı qazancından 2 milyon azdır.

Qeyd edək ki, Ronaldo mançesterlilərlə üç dəfə İngiltərə çempionu, iki dəfə Liqa kubokunun, bir dəfə ölkə kubokunun, 2008-ci ildə Çempionlar Liqasının və klublararası dünya çempionatının qalibi olub.




**olimpnews.az - sizin saytınız**






### Üfüqi

**3.** Tokio-2020-də Türkiyə yığmasına qızıl medal qazandıran idmançı Mete... **4.** Azərbaycanın cüdo tarixində ilk Olimpiya medalı qazanan qadın təmsilçimiz. **5.** Beşqat Olimpiya çempionu olan avstraliyalı idmançı Emma... **6.** Olimpiya oyunlarında gümüş medal əldə edən qadın karateçimiz. **7.** Tokio Olimpiadasının talismanı. **10.** XXXII Yay Olimpiya Oyunlarında ilk dəfə qızıl medal əldən edən ada ölkəsi. **12.** Üzgüçülük yarışlarında ABŞ-ı təmsil edən 7 qat Olimpiya çempionu. **14.** Tokioda su polosu üzrə Olimpiya çempionu olan kişilərdən ibarət yığma komanda. **17.** Tokio-2020-də debüt edən idman növü. **18.** Atletika yarışlarında 4x100 məsafəyə qaçışda birinci olan yığma komanda.

### Şaquli

**1.** Tokioda kişilər arasında keçirilən basketbol yarışlarında bürünc medal qazanan ölkə. **2.** Tokio-2020-də güləşçimiz Hacı Əliyevin finaldakı rəqibi. **8.** Bu ölkənin həm kişi, həm də qadınlardan ibarət həndbol yığması Olimpiya çempionu olub. **9.** Karatenin "qara brilyantı", Olimpiya oyunlarının gümüş mükafatçısı. **11.** Qadınların şpaqa növü üzrə komanda yarışının qalibi. **13.** Olimpiya oyunlarında softbol üzrə ilk Olimpiya çempionu olan yığma komanda. **15.** Karateçimiz İrina Zaretskanın finaldakı rəqibi Faysal... **16.** Reqbi-7 üzrə Olimpiya çempionu olan ada ölkəsi.

## "Mən Zlatanam" adlı filmin premyerası təxirə salınıb

İtaliyanın "Milan" klubunun futbolçusu Zlatan İbrahimoviç haqqında çəkilmiş "Mən Zlatanam" adlı filmin premyerası təxirə salınıb. Bu barədə isveçli hücumçu sosial şəbəkə hesabında paylaşım edib. O, treylerin ilkin nümayişinin 2022-ci il yanvarın 14-də olacağını açıqlayıb.

Premyera əvvəlcə sentyabrın 10-na planlaşdırılsa da, koronavirus pandemiyası səbəbindən çəkilişlər gecikib.

Treylerdə isveçli hücumçunun gənclik dövründən formalaşmağa başlaması əksini tapıb. Onun rolunu aktyorlar yerinə yetirirlər.




Qeyd edək ki, Zlatan İbrahimoviç İsveç "Malmö"sünün (1999 - 2001) yetirməsidir. O, daha sonra Niderlandın "Ayaks", İtaliyanın "Yuventus", "İnter" və "Milan", İspaniyanın "Barselona", Fransanın PSJ, İngiltərənin "Mançester Yunayted" və ABŞ-ın "Los-Anceles Qelaksi" komandalarında oynayıb. 2001 - 2016-cı illərdə İsveç yığmasının formasını geyinmiş İbrahimoviç ötən mövsüm "Milan"a qayıdıb. Təcrübəli forvard yığmaya da dönməsinə baxmayaraq, zədə üzündən AVRO-2020-ni buraxmalı olub.

Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:*
olimpiya_dunyasi@mail.ru
*Ünvan:*
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49;
564-74-19